***Press-reliz***


| | |
|---|---|
| *Tarix* | **18 noyabr 2022-ci il** |
| *Əlaqə məlumatları* | **Aysel Süleymanova**<br>Marketinq, Kommunikasiyalar və Biznesin İnkişafı üzrə Rəhbər, PwC firmasının Azərbaycan Respublikasında Filialı<br>Tel: +994124972515<br>E-poçt: aysel.suleymanova@pwc.com |
| *Səhifə* | 2 |


# Fərid Qəttal III Maliyyə və İnvestisiya Forumunda (FIF2022) iştirak edib

PwC firmasının Azərbaycan Respublikasında Filialının Texnologiyalar üzrə Rəhbəri Fərid Qəttal noyabrın 16-da Baku Marriott Hotel Boulevard otelində keçirilən III Maliyyə və İnvestisiya Forumunda (FIF2022) çıxış edib.

Fərid Qəttal, Vergilər və Hesabatlılıq mövzusunda panel müzakirəsində iştirak etməklə, vergi hesabatlarının avtomatlaşdırılmasında rəqəmsal transformasiyaya yanaşma kimi məsələlərə toxunub. Fərid, PwC Pulse Survey araşdırmasının nəticələri ilə paylaşaraq, qeyd etdi ki, şirkətlərin məlumat xidməti rəhbərlərinin (İT direktorların) yalnız 30%-i vergi xidməti rəhbərlərini rəqəmsal təşəbbüslərin planlaşdırılması prosesinin bir hissəsi kimi nəzərdən keçirir.

"Vergilərin şirkətdə ERP sisteminin tətbiqi planına mütləq qaydada daxil edilməsi çox vacibdir. İlkin vergi tələblərinin ERP sisteminin tətbiqi layihəsinin erkən mərhələlərində müəyyən edilməsi tənzimləmə və vergi risklərini minimuma endirməyə imkan verir. İT direktorlar və vergi xidməti rəhbərləri arasında əməkdaşlıq texnologiyaya olan etimadı gücləndirməyə kömək edir və biznes ehtiyaclarını daha yaxşı təmin etməyə imkan yaradır", - deyə Fərid qeyd etdi.

Forum dünyada və regionda maliyyə investisiyaları imkanlarının müzakirəsi üçün bir platforma kimi çıxış etdi.

PwC Azərbaycan daima qlobal standartlara uyğun olaraq məlumatlılığı artırmaqla Azərbaycanda innovativ yönümlü iqtisadiyyatın inkişafını dəstəkləyir.

*© 2022 PwC. All rights reserved.*

*At PwC, our purpose is to build trust in society and solve important problems of our clients. We achieve this by offering client centric solutions in tax, legal, assurance and advisory from strategy through execution. Over 130 professionals from 4 countries working in PwC Azerbaijan share their thinking, values, experience and solutions to develop fresh perspectives and practical advice for our clients. We are a network of firms in 156 countries with more than 284,258 people who are committed to delivering quality in assurance, advisory and tax services. Find out more and tell us what matters to you by visiting us at www.pwc.com/az*